

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 190 (23.832)

*14 oktyabr 2021-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Oktyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliyanın "La Repubblica" qəzetinə müsahibə verib.

Prezident İlham Əliyev 44 günlük Vətən müharibəsi başa çatdıqdan sonra Azərbaycanda, Qarabağ bölgəsində yerləşən Rusiya sülhməramlılarının vasitəçiliyindən, ümumən, razı qalması, azad olunmuş ərazilərə artıq kifayət qədər sərmayə qoyulması, yenidənqurma işlərinə cəlb edilən ilk ölkənin Türkiyə, ikincisinin isə İtaliya olması, Trans-Adriatik qaz kəmərinin Avropada qazın qiymətinin müəyyən dərəcədə aşağı səviyyədə saxlanılmasında rolu ola biləcəyi barədə məlumat verib.

Dövlət başçısı qeyd edib ki, Azərbaycanın xarici siyasətinin başlıca prinsipi müstəqillikdir və hər hansı xarici hökmranlıqdan azaddır. İkincisi isə praqmatiklikdir. Müsahibədə Avropanın Cənubi Qafqazda daha geniş iştirakının müsbət hal olması, İranla ikitərəfli münasibətlər haqqında suallar da cavablandırılıb.



## Qars müqaviləsinin 100 illiyinə həsr olunmuş tədbirlər keçirilib



Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyində birəsrlik tarixi boyunca mühüm tarixi-siyasi əhəmiyyətə malik olan Qars müqaviləsinin 100 illiyi münasibətilə tədbir keçilib.

Tədbir iştirakçıları əvvəlcə müstəqil Azərbaycan Respublikasının banisi, ümummilli lider Heydər Əliyevin, dövlət müstəqilliyi və torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid olmuş bütün Vətən övladlarının əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Daimi Nümayəndəliyin rəhbəri Bəxtiyar Əsgərov tədbiri açaraq bildirib ki, Naxçıvan Muxtar Respublikasının Azərbaycan Respublikasının tərkibində muxtariyyət statusuna beynəlxalq səviyyədə təminat verən Qars müqaviləsi beynəlxalq tarixi, siyasi və hüquqi sənəd olması baxımından bu gün də böyük əhəmiyyət daşımaqdadır. Bununla bağlı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun imzaladığı "Qars müqaviləsinin 100 illiyinin keçirilməsi haqqında" 2021-ci il 8 fevral tarixli Sərəncamda Azərbaycan Respublikası və Naxçıvan üçün bu taleyüklü müqavilənin tarixi əhəmiyyəti geniş şəkildə öz əksini tapmışdır. Bu Sərəncam muxtar respublika rəhbəri tərəfindən sözügedən müqavilənin hüquqi-siyasi əhəmiyyətinə verilən qiymətdir.

Müstəqil Azərbaycan dövlətinin yaradıcısı, ümummilli lider Heydər Əliyev bununla əlaqədar demişdir ki, Azərbaycanın ovaxtkı hökuməti çox ciddi mövqe göstərərək həmin Qars müqaviləsində Naxçıvanın statusunu müəyyən etmiş və Naxçıvana muxtariyyət verilməsi haqqında qərar qəbul olunmuşdur. Ulu öndər Naxçıvanın ərazi bütövlüyünün və muxtariyyət statusunun qorunub saxlanılmasında Qars müqaviləsinin əhəmiyyətini yüksək qiymətləndirmişdir: ***"Naxçıvanın statusunu qoruyub saxlamaq üçün Moskva müqaviləsinin və xüsusən Qars müqaviləsinin böyük əhəmiyyəti olub. Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan bir sənəddir".***

Tarixi proseslərin sonrakı inkişafının nəticəsi olaraq Naxçıvan 1921-ci ilin martında Naxçıvan Sovet Sosialist Respublikası, 1923-cü ilin iyununda Naxçıvan diyarı, 1924-cü il fevralın 9-da Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı il noyabrın 17-də isə Naxçıvan Muxtar Respublikası adlandırılıb.

Bildirilib ki, hələ ulu öndər Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyərkən, Naxçıvana qarşı ermənilərin iddialarının daha da artdığı bir vaxtda bir neçə dəfə Türkiyə Cümhuriyyətinə rəsmi və işgüzar səfər etmiş, Türkiyə Cumhuriyyətinin ozamankı Prezidenti Turqut Özalla, və Baş nazir Süleyman Dəmirəllə danışıqlar aparmış, Qars müqaviləsini gündəmə gətirmiş, bu barədə yeni protokollar imzalamışdır. Görüşlər zamanı Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyində Qars müqaviləsinin rolu geniş şəkildə müzakirə edilmişdir. 100 il sonra məhz Ali Baş Komandan Prezident cənab İlham Əliyev 15 iyun 2021-ci il tarixi Şuşa Bəyannaməsində Azərbaycanın Qars müqaviləsinə sadiqliyini təsdiq etməklə Qafqazda və dünyada ədalətli lider dövlətin, regionda sülhün və sabitliyin əsas etibarlı qarantının məhz Türkiyə olduğunu bir daha nümayiş etdirmiş oldu. Tarixi Qars müqaviləsinin hüquqi varisi kimi 100 il sonra imzalanan Şuşa Bəyannaməsi nəinki Azərbaycan-Türkiyə birliyini, qardaşlığını, əməkdaşlığını daha da möhkəmləndirəcək, hətta iki ölkənin birgə müdafiə olunmasını, bir-birini qorumasını və hərtərəfli dəstəklənməsini təmin edəcəkdir.

Çıxışda Naxçıvan Muxtar Respublikasının regionda mühüm geopolitik əhəmiyyətə malik olmaqla yanaşı, bu gün həm də region üçün iqtisadi, ticarət, nəqliyyat, turizm kimi mühüm sahələrdə də rol oynamasından bəhs olunub.

Tədbir digər çıxışlarla davam etdirilib.

***AZƏRTAC***



***AMEA Naxçıvan Bölməsində muxtar respublikanın ümumtəhsil məktəblərinin şagirdləri üçün keçilən növbəti interaktiv dərs Qars müqaviləsinin imzalanmasının 100 illiyinə həsr olunub.***

Bölmənin sədri, akademik İsmayıl Hacıyev dərsdə ötən əsrin əvvəllərində Cənubi Qafqazda mövcud olan ağır siyasi vəziyyət, xarici qüvvələrin Naxçıvanla bağlı planları, Moskva və Qars müqavilələrinin imzalanmasını labüd edən səbəblərdən bəhs edib. Akademik 1918-1920-ci illərdə erməni daşnaklarının Naxçıvanı Azərbaycandan qoparmaq üçün izlədikləri qeyri-leqal siyasi xətt, törədilən qırğınlar haqqında ətraflı məlumat verib. Naxçıvan əhalisinin daşnaklara qarşı inadlı müqaviməti, Behbud ağa Şahtaxtinskinin fəaliyyətinin Naxçıvan dövrü, Türkiyənin bu məsələdəki dəstəyi və rolu, zəruriləşən muxtariyyət məsələsi dərsin aparıcı xəttini təşkil edib.

Akademik şagirdlərə 1921-ci ildə Naxçıvanda keçirilən referendumun muxtariyyət statusunun qazanılmasındakı rolundan, Moskva və Qars müqavilələrində Naxçıvanla bağlı müddəanın əhəmiyyətindən danışıb, şagirdlərə tarixi Qars konfransı haqqında məlumat verib. Konfransda Türkiyə heyətinin dayanıqlı mövqeyindən, Rusiyanın müzakirə olunan əraziləri özünə birləşdirmək niyyətlərindən söz açıb. O aparılan müzakirə və mübahisələrin ardından imzalanan Qars müqaviləsinin mühüm əhəmiyyəti, sazişlə təsbit edilən ərazilər, eləcə də ermənilərin, ermənipərəst qüvvələrin fiaskoya uğrayan siyasətindən bəhs edərək bildirib ki, Qars müqaviləsinin V maddəsi və III əlavəsi Naxçıvanın ərazi mənsubiyyəti məsələsini təsdiqləmiş, onun sərhədlərini qəti şəkildə müəyyənləşdirmişdir.

"Müddətsiz imzalanmış müqavilə ilə Ermənistan Naxçıvanı Azərbaycan ərazisi kimi tanıdı, Naxçıvan vilayətinin Azərbaycanın himayəsinə verildiyini və Azərbaycanın müdafiəsini qəbul etdiyini təsdiqlədi", – deyən alim Qars müqaviləsini türk diplomatiyasının mühüm qələbəsi adlandırıb.



*Sədərək kənd 1 nömrəli tam orta məktəb*

İnteraktiv dərsdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Naxçıvanın muxtariyyət əldə etməsində Moskva və Qars müqavilələrinə böyük əhəmiyyət verdiyi vurğulanıb, dahi rəhbərdən və Mustafa Kamal Atatürkdən sitatlar gətirib. Qars müqaviləsinin 100 illiyi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladığı 2021-ci il 8 fevral tarixli Sərəncam tarixi keçmişimizə dəyər verən mühüm siyasi sənəd kimi təhlil edilib.

Bölmənin sədri interaktiv dərs zamanı bildirib ki, 1921-ci ildə imzalanmış Qars müqaviləsi bütün XX əsr boyu öz müsbət rolunu oynamış və XXI əsrdə də bu gün edir. 2021-ci il iyunun 15-də imzalanan Şuşa Bəyannaməsi – Müttəfiqlik müqaviləsi iki dost və qardaş ölkənin Qars müqaviləsinə sadiq olduqlarını bir daha təsdiq edib. Şuşa Bəyannaməsi tarixi varisliyi göstərməklə Qars müqaviləsinin həyatiliyini və uzunömürlülüyünü bir daha təsdiqlədi.

Akademik İsmayıl Hacıyev sonda diqqətə çatdırıb ki, hər bir gənc tarixi həqiqətləri dərindən öyrənməli, əsl vətənpərvər kimi yetişməyi həyatının əsas amalı kimi müəyyənləşdirməlidir, çünki bu günün savadlı məktəblisi Azərbaycanın sabahkı inkişafının qarantıdır.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

* * *

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin təşkilatçılığı və "Naxçıvan" Universitetinin tələbələrinin iştirakı ilə Qars müqaviləsinin 100 illiyinə həsr olunmuş "Qars müqaviləsi və Naxçıvan" mövzusunda açıq dərs keçilmişdir.***

Tədbiri giriş sözü ilə mərkəzin elmi katibi Nihad Tarverdiyev açmışdır. Qeyd etmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2021-ci il fevralın 8-də Qars müqaviləsinin 100 illiyinin keçirilməsi haqqında imzaladığı Sərəncamda bildirilir ki, 1921-ci il oktyabrın 13-də Azərbaycan, Ermənistan və Gürcüstan Sovet Sosialist respublikaları ilə Türkiyə arasında imzalanmış Qars müqaviləsi Naxçıvanın muxtariyyət statusuna təminat verən çox mühüm hüquqi, siyasi və beynəlxalq sənəddir.

Diqqətə çatdırılmışdır ki, 1921-ci il oktyabrın 13-də imzalanan Qars müqaviləsinin 5-ci maddəsi və 3-cü əlavəsi Naxçıvanın ərazi mənsubiyyətini bir daha təsdiqləyərək, onun sərhədlərini qəti surətdə müəyyənləşdirmişdir. Beləliklə, Moskva və Qars kimi beynəlxalq müqavilələrdə Naxçıvanın taleyi həll olunmuşdur. Naxçıvan əhalisinin və ziyalılarının inadlı mübarizəsi, o cümlədən görkəmli diplomat Behbud ağa Şahtaxtinskinin prinsipial mövqeyi, Türkiyə dövlətinin məsələyə ədalətli yanaşması nəticəsində bu müqavilə Naxçıvanın ərazisi və bu ərazinin beynəlxalq müqavilə ilə qorunan toxunulmazlıq hüququnu təsbit etmişdir. Qars müqaviləsi 1922-ci ilin mart-iyun aylarında müqaviləni imzalayan ölkələrin qanunvericilik orqanlarında təsdiq edilmiş və həmin il sentyabrın 11-dən qüvvəyə minmişdir.

Qeyd olunub ki, Qars müqaviləsinin imzalanması və Naxçıvanın muxtariyyət statusunun təsbit olunması dövlətçilik tariximizdə mühüm mərhələdir. Bu tarixin öyrənilməsi və gələcək nəsillərə çatdırılması isə bütün dövrlər üçün aktual və vacibdir.

Açıq dərsin sonunda mərkəzdə yaradılan "Ümummilli lider Heydər Əliyev", "Şərq qapısı" – 100", "İsmayıl Hacıyev – 70", "Qars müqaviləsi – 100", "Yeni nəşrlər", "Oxunması zəruri olan kitablar" sərgilərinə, həmçinin mərkəzin çap materialları fonduna baxış olmuş, tələbələrin sualları cavablandırılmışdır.

**Xəbərlər şöbəsi**

Müasirləşən kəndlərimiz

# Tarix və müasirliyin, qəhrəmanlığın vəhdəti – Qaraağac

***Qədim Sədərəyin məğrur duruşlu bir kəndi var. Adı şəninə şeirlər yazılan, çoxyarpaqlı, iri, yamyaşıl qaraağacdan götürülən bu kənd dağlar arasındakı Qaraağac meşə zolağından, Hacı Heydər bağından başlayır. Sədərəyin düşmənlə ən yaxın mövqelərinin yerləşdiyi bu yaşayış məntəqəsinin hər daşı, hər qayasında bir igidin ayaq izləri var. Bu gün Vətənin başladığı yerdə – Sədərək rayonunun Qaraağac kəndində şəhid qanı ilə sulanan, zirvələrdə dalğalanan üçrəngli, ay-ulduzlu bayrağımıza baxanda qürurlanırıq. Bu dağlar, bu dərələr böyük tarix yaşayıb, çox müharibələr görüb, hamısından da alnıaçıq, üzüağ çıxıb.***

"Elə bir qəhrəmanlıq səhifəsidir ki, Sədərək döyüşləri onu yazmaqla, söyləməklə bitməz", – deyir həmin döyüşlərin iştirakçısı, Vətən müharibəsinin cəsur döyüşçüsü Murad Həsənovun atası Rzaqulu əmi...

– Həmin günlər Azərbaycan xalqının taleyinə yazılan bu şanlı səhifə yurd, torpaq, Vətən sevgisinin sübut edildiyi bir tarixdir, həm də xalqımızın qəhrəmanlıq salnaməsidir... Çörəyimizə xəyanət edənlər belini əymək istədilər anamız Azərbaycanın, amma əyə bilmədilər. Bakı şəhəri dirəkləri laxlamaqda olan imperiyanın qoşunları tərəfindən amansızcasına güllləbaran edildiyi bir gecədə yaranmış fürsətdən istifadə edən ermənilər və onların havadarları isə bütün sərhədboyu muxtar respublikamızı müxtəlif çaplı avtomat silahlardan, toplardan atəşə tutmağa başlamışdılar. Hamı bir oldu, bu dağlar-qayalar burada döyüşən igidlərin qanı ilə sulandı, amma bir







qarışı düşmənə verilmədi. Həmin gecə od yağdırırdı dinc sakinlərin başına mənfur ermənilər. Bizim əlimiz, demək olar ki, yalın idi. Müasir silahlardan istifadə edən və havadarlarından güc alan ermənilərə qarşı beş-on nəfər polis işçisi və könüllülər ov tüfəngi ilə döyüşürdük. Muxtar respublikanın bölgələrindən Sədərəyə axın-axın insanlar gəlir, döyüşə can atırdı. Hər tərəfdən küncə sıxışdırılsaq da, sınmadıq, əyilmədik. Qaynım Mübariz Şahverdiyev də Sədərəyin müdafiəsində, döyüşlərdə şəhid olub. Bu gün fəxr hissi ilə deyirəm ki, oğlum Murad da Vətən müharibəsi iştirakçısı oldu. Qələbə ilə evimizə qayıtdı.

Yaşı 80-ə yaxın olan Dilbər Rzayeva deyir ki, müharibədən əvvəl Qaraağac meşəsinə dağlar qoynundan süzülən Çapan çayı qıvrılıb gəlirdi və sonra neçə-neçə qola ayrılırdı. Yazda Çapanın şaqqıldayan səsi kəndə yayılırdı. Xain qonşularımız önünü kəsib qurutdular bu çayı. "Su gələn arxa bir də gələr", – deyib atalarımız. İnşallah əvvəlki günlərdəki kimi bir gün Çapanın suyu yenidən gələr. Ulu Tanrı haqqımızı haqq elan etdi – Vətən müharibəsində qalib gəldi dövlətimiz. Bir daha düşmən gücünü gördü bu xalqın. Biz inanırıq ki, bu qalibiyyət kəsilən suların qarşısını, bağlanan yolları da açacaq. Dilbər xanım kəndin tarixi haqqında da danışır:

– Qaraağac kəndində "Nadir düzü"nün aşağısında "Tökmə" deyilən bir sədd var. Deyirlər, keçmişdə selin qarşısını almaq üçün yaradılıb. Ancaq bəzi rəvayətlərə görə qədimdə belə bir adət-ənənə olub ki, padşah öz qoşunu ilə döyüşə gedərkən orduya əmr edirmiş ki, müəyyən olunmuş yerə hərə bir daş atsın. Bütün əsgərlər hərəsi bir daş atıb döyüşə gedirmiş. Daşdan bir dağ, bir təpə əmələ gəlirmiş. Döyüşdən qayıdanda padşah əmr edirmiş ki, indi hərə öz daşını götürsün. Hər kəs bir daş götürəndən sonra padşah və qoşunu yerdə qalan daşların, yəni şəhidlərin daşlarının önündə diz çöküb, onları yad edirmişlər. Buranın "Tökmə dağ" adlandırılması həmin rəvayətlə də bağlıdır.

Kənd bələdiyyəsinin sədri Fərhad Rzayevlə həmsöhbət olduğumuzda o bildirir ki, düşmənlə göz-gözə, üz-üzə dayanan, günbəgün gözəlləşən, dəyişən Sədərək rayonunda və onun Qaraağac kəndində də muxtar respublikamızın hər yerində olduğu kimi quruculuq, abadlıq işləri gedir. 1997-ci ildə Qaraağac Sədərək kənd inzibati ərazi vahidi tərkibindən çıxarılaraq ayrıca ərazi vahidi kimi qeyd olunub. Ərazisi 2133 hektar olan kəndin 4961 sakini var. 1443 təsərrüfatı və 283 yaşayış evi olan Qaraağac kəndinin sakinləri, əsasən, əkinçilik və maldarlıqla məşğuldur. Qaraağac kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin yeni binası 2009-cu ildə müasir layihə əsasında tikilib. Qaraağac kənd bələdiyyəsi də həmin bu binada yerləşir. Kənd tam orta məktəbi 1994-cü ildə istifadəyə verilib. 2007-ci ildə isə yenidən təmir olunub. Kənd mərkəzində Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, kitabxana, klub, tibb və baytarlıq məntəqələri yerləşir. Qaraağac kəndinin ərazisində, Vəlidağın ətəyində "Qumdərə" adlanan yerdə inşaat materialı olan qum çıxarılır ki, Sədərəkdə, Şərurda, ümumiyyətlə, Naxçıvan Muxtar Respublikası ərazisində tikinti obyektlərində istifadə edilir. Rayon Elektrik Şəbəkəsi, "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin rayon bazası, "Sədərək" şadlıq sarayı, soyuducu anbar, dəyirman kimi obyektlər Qaraağac kəndinin ərazisində yerləşir. Davamlı olaraq təbii qaz və elektrik enerjisi ilə təmin olunan Qaraağac kəndinin içməli suya olan tələbatı Əjdəkan dağının ətəyində tikilən su anbarı istifadəyə verildikdən sonra tamamilə ödəniləcək. Muxtar respublikamızın hər yerində olduğu kimi, Qaraağacda da davamlı olaraq yaşıllaşdırma işləri görülür. Bu tədbirlər sayəsində kənddə meyvə bolluğu yaranıb. Kənd əhalisi həm istədiyi meyvənin məhsulunu yığıb özü istifadə edir, həm də əsgərlərimizə, hərbi hissələrimizə sovqat aparır.

Qaraağac torpağının min bir dərdə dərman olan bitkilərini saymaqla qurtarmaz. Ən keyfiyyətli balı bu dağların çiçəklərindən toplayır arılar. Sədərək balının şöhrəti dillərdə gəzir, – deyir ailə təsərrüfatçısı Mehriban xala. O bildirir ki, Validağdan və Əjdəkandan yığılan bitkilər insanların sağlamlığı üçün faydalı olmaqla yanaşı, bir çoxunun ailə büdcəsinə də kömək edir. Yerli sakinlər hər bir bitkinin dilini, ondan necə istifadə etməyi yaxşı bilir. Arıçılıqla məşğul olanlar da öz arı yeşiklərini yazın güllü-çiçəkli vaxtlarında dağa aparır ki, arsəyə gələn bal yaxşı olsun.

Nizami Ağayev deyir ki, heyvandarlıq və əkinçiliklə məşğul olur. Bu il 6,5 hektar sahədən taxıl tədarük etdiyini bildirən təsərrüfatçı onu da qeyd edir ki, mal-heyvanın, toyuqcücənin yemini öz əkin sahələrindən toplayırlar. Torpaq ona baş əyən, alın tərini tökən insanı heç vaxt naümid qoymayıb. Allaha şükür, sabitliyimiz təmin olunub. Vaxt var idi, torpağımız düşmənin atdığı qradların, topların dağıdıcı zərbəsinə tuş gəlmişdi. Od tutub yanırdı yurdumuz. Amma "pis günün ömrü az olar", – deyiblər. Çətin günlərimiz geridə qalıb. Güllü-çiçəkli bir Sədərək var artıq. Düşmənin beş metrliyində bir qorxu-ürkü bilmədən mal-qaramızı otarır, gecələr evimizdə rahat yatırıq. Tanrı dövlətimizin bayrağını həmişə uca eləsin.

*Kənddən ayrılıb yola düşürük. İnanırıq ki, Qaraağac kəndinin sakinləri onların rahat yaşaması, güzəranının yaxşılaşdırılması üçün bundan sonra da yaradılan şəraitdən düzgün istifadə edəcək, dövlətimizin inkişafına öz töhfələrini verəcəklər.*

✍ **Ramiyyə ƏKBƏROVA**

# Daxili bazarda qiymət və keyfiyyətə ciddi nəzarət olunur

***Bu gün muxtar respublikada iqtisadi inkişafın səmərəliliyinin artırılmasında keyfiyyət əsas meyar kimi qəbul olunur. Buna görə də daxili bazarın qorunması istiqamətində təsərrüfat subyektlərində istehsal edilən və idxal olunan məhsulların keyfiyyətinə dövlət nəzarəti diqqət mərkəzində saxlanılır.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bilavasitə diqqət və qayğısı sayəsində həyata keçirilən tədbirlər istehlakçıların hüquqlarının qorunmasına, əhalinin tələbatının daha keyfiyyətli məhsullarla ödənilməsinə hərtərəfli şərait yaratmışdır. Bu il fevral ayının 27-də Naxçıvan Biznes Mərkəzində sahibkarlarla keçirilən görüşdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri daxili bazarın keyfiyyətli və təhlükəsiz yerli məhsullarla təminatı baxımından dövlət orqanları ilə birlikdə sahibkarlar qarşısında da mühüm vəzifələr müəyyənləşdirərək demişdir: ***"İqtisadiyyat Nazirliyi aidiyyəti qurumlarla birgə özünüməşğulluğun təmin edilməsi, ailə təsərrüfatlarının inkişafı və yerli xammala əsaslanan yeni istehsal sahələrinin yaradılması istiqamətində tədbirlər həyata keçirməli, ailə təsərrüfatları tərəfindən istehsal olunan məhsulların rəqabətqabiliyyətinə, ixracyönümlülüyünə, standartlara uyğun dizayn və qablaşdırılmasına diqqət artırılmalı, idxaldan asılılıq aradan qaldırılmalı, xammaldan-satış bazarınadək məsələlər təhlil edilməlidir".*** Bütün bunlar, nəticə etibarilə, istehlakçıların təhlükəsiz və keyfiyyətli məhsullarla təmin edilməsinə şərait yaradan vacib amillərdəndir. Ona görə ki, yerli istehsalın təşkili bir tərəfdən xaricə valyuta axınının qarşısını alaraq idxaldan asılılığı aradan qaldırırsa, digər tərəfdən məhsulun istehlakçılara daha münasib qiymətlərlə çatdırılmasına imkan yaradır, mənşəyi məlum olmayan, ekoloji cəhətdən o qədər də təmiz hesab edilməyən məhsulların bazarlara yol açmasının qarşısını alır. Bu isə muxtar respublikada daxili bazarın, eyni zamanda istehlakçıların hüquqlarının qorunması deməkdir.

Yerli istehsalın genişləndirilməsi





və istehsalçıların mənafelərinin qorunması məqsədilə Naxçıvan Muxtar Respublikasında istehsal olunan ərzaq və qeyri-ərzaq məhsulları haqqında məlumat bazası hazırlanmış, topdan və pərakəndə satış obyektlərində yerli istehsal məhsullarının satışına üstünlük verilməsi ilə bağlı sahibkarlarla maarifləndirici tədbirlər keçirilmişdir. Artıq sahibkarlar tərəfindən, xüsusilə yeyinti məhsullarının lazımi keyfiyyətdə istehsalına, onların saxlanma şəraitinə riayət olunmasına, daşınmasına və satışına, istehlakçılara göstərilən xidmət səviyyəsinin xeyli dərəcədə yaxşılaşdırılmasına nail olunmuşdur.

Cari ilin ötən dövrü ərzində daxili bazarda süni qiymət artımının və razılaşdırılmamış qiymətlərin tətbiqinin qarşısının alınması istiqamətində muxtar respublikanın şəhər, rayon və kəndlərində fəaliyyət göstərən ticarət obyektlərində mütəmadi olaraq monitorinqlər keçirilmiş, satışa çıxarılan malların üzərinə qiymət yarlıqlarının vurulması təmin edilmiş, satışda olan əsas istehlak mallarının qiymətləri nəzarətdə saxlanılmışdır.

Daxili bazara nəzarət və keyfiyyətin yüksəldilməsi məqsədilə 2021-ci ilin ötən dövrü ərzində 924 halda istehsal, ticarət və xidmət obyektlərində qiymət və keyfiyyətə nəzarət həyata keçirilmişdir.

Məhsulun istehlakçılara çatdırılmasında bütün tələblərə riayət olunur ki, bu da muxtar respublika əhalisinin ekoloji cəhətdən təmiz, keyfiyyətli və etibarlı ərzaqla təminatına imkan verir. Bunun üçün malların keyfiyyət və təhlükəsizlik göstəriciləri üzrə laborator müayinələr aparılır, nəticələrə uyğun olaraq operativ tədbirlər görülür. Belə ki, cari ilin ötən dövrü ərzində ərzaq mallarının keyfiyyət və təhlükəsizlik göstəricilərinin qiymətləndirilməsi ilə bağlı 455 səyyar və 1567 halda mal nümunəsi laboratoriya analizindən keçirilmişdir. Müayinə aparılmış mallar, əsasən, taxıl emalı məhsulları, unlu-qənnadı məmulatları, süd və süd məhsulları, konservlər, ət və ət məhsulları, meyvə-tərəvəz, mineral sular və sərinləşdirici içkilər, tamlı məhsullar, yağlar və digər məhsullar olmuşdur. Müayinə nəticəsində 1 halda malların keyfiyyət və təhlükəsizlik göstəricilərinin normativ-texniki sənədlərin tələblərinə uyğun olmadığı müəyyən edilmiş və bununla bağlı müvafiq tədbirlər görülmüşdür.

İstehlakçıların hüquqlarının qorunması istiqamətində həyata keçirilən tədbirlərdən biri də süni qiymət artımının qarşısının alınmasıdır. Bu məqsədlə muxtar respublikada fəaliyyət göstərən ərzaq və qeyri-ərzaq məhsullarının topdansatışını həyata keçirən 41 sahibkarlıq subyektinin 12759 və yerli məhsulların istehsalı ilə məşğul olan 42 sahibkarlıq subyektinin 1295 olmaqla, cəmi 14054 çeşiddə məhsula və onların qiymətlərinə nəzarət olunmuşdur.

Muxtar respublikada ailə təsərrüfatları sürətlə inkişaf edir. Sahibkarlığın İnkişafı Fondu tərəfindən cari ilin ötən dövrü ərzində onların fəaliyyətlərinin stimullaşdırılması, genişləndirilməsi üçün 60 ailə təsərrüfatına 946 min 700 manat güzəştli kredit verilmiş, müxtəlifölçülü taralarla təmin edilmişdir. Eyni zamanda şəhər və rayonlarımızda fəaliyyət göstərən ticarət obyektlərində ailə təsərrüfatı məhsulları guşələrinin yaradılması muxtar respublikada belə məhsulların çeşidinin və rəqabət qabiliyyətinin artırılmasında, istehlakçıların ekoloji təmiz ərzaq məhsulları ilə təmin edilməsində mühüm rol oynayır.

Yerli məhsullarımızın satışına və təbliğinə geniş imkanlar açan, süni qiymət artımına maneə yaradan, bazardakı bolluğu təmin edən kənd təsərrüfatı yarmarkaları daxili bazarın inkişaf etdirilməsində əsas istiqamətlərdən biri kimi mühüm rol oynayır. Hər həftənin şənbə və bazar günləri Naxçıvan şəhərində və rayon mərkəzlərində kənd təsərrüfatı və sənaye məhsulları yarmarkası təşkil olunmuş və məhsulları bazar qiymətlərindən 10 faiz aşağı qiymətə satılmasına nəzarətin həyata keçirilməsi təmin edilmişdir.

Muxtar respublikamızda əhalinin sağlamlığı, təhlükəsizliyi naminə keyfiyyətli məhsul istehsalı, həmçinin Naxçıvanın iqtisadi baxımdan inkişaf etmiş bir diyara çevrilməsi, istehlakçıların hüquqlarının qorunması istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir. Bizim hər birimiz istehlakçı kimi öz hüquqlarımızı yaxşı bilməli, yerli məhsullara üstünlük verməklə daxili bazarın qorunması və maliyyə vəsaitlərinin xaricə axınının qarşısının alınması istiqamətində aparılan dövlət siyasətinə öz əməli işimizlə töhfə verməliyik.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

***Muxtar respublikamızda milli iqtisadi inkişafa hədəflənən sənayeləşmə prosesləri yüksələn dinamika ilə davam etməkdədir. Elmə söykənən iqtisadiyyat qarşısında duran ən mühüm məsələ vaxt və məhsul itkisinə yol vermədən əmək məhsuldarlığına imkanlar açacaq istehsal proseslərinin fasiləsiz şəkildə qurulması, təminat qabiliyyətli olması və bütün tərəfləri ilə qənaətçiliyə önəm verilməsindən ibarətdir. Başqa sözlə, insanların fəaliyyətinin stimullaşdırılması, asanlaşdırılması və səmərəli təşkili mühüm məqsəd olaraq çıxış etməkdədir ki, burada da robototexnikanın rolu və önəmindən bəhs etmək yerinə düşər. Elə təsadüfi deyildir ki, qloballaşan dünya iqtisadiyyatı dayanıqlılığa və antiböhran sahəsindəki yetkinliyə meyillənməklə, eyni zamanda iqtisadi imkanlar sahəsində alternativliliyə də böyük həcmdə həm xərc nəzərdə tutur, həm də onu reallaşdırır. Bu sahədə robota dayanan avadanlıqların – robototexnikanın rolu hər addımda özünü göstərməkdədir.***

*Yeni nəşrlər*

## İnformasiya-kommunikasiya texnologiyalarının öyrənilməsinə mühüm töhfə



Naxçıvan Dövlət Universiteti də yuxarıda göstərilən amillər üzrə daha dolğun, daha perspektivli tədbirlərə imza atmaqla elmi axtarışların və etibarlı tədris proseslərinin davamlılığını təmin etmişdir. Burada dövlətimizin gündəlik qayğı və diqqətilə yaradılmış sağlam tədris şəraiti bütün fakültələrin, ixtisasların və tələbələrin şaxələndirilməsinə imkan vermişdir. Bu isə, təbii ki, öz növbəsində, həm də yeni nəşrlərin işıq üzü görməsinə şərait yaratmış və ona səmərəlilik gətirmişdir. Fikrimizi əsaslandırmaq üçün qeyd edə bilərik ki, Memarlıq və mühəndislik fakültəsinin dekanı, kompüter elmləri üzrə mütəxəssis, professor Cavanşir Zeynalovun müəllifliyi ilə yenicə çap olunmuş "Robototexnikanın əsasları" adlı dərs vəsaitində zəruri məsələlər yer almışdır. Xüsusilə artıq geridə qalan tədris ilində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təməlini qoyduğu və tikintisi uğurla davam edən Texnoparkın səmərəli fəaliyyəti üçün də zəruri məsələlər dərs vəsaitinin aktuallığını ifadə etməkdədir.

Dərs vəsaiti 8 fəsildən ibarət olmaqla, 336 səhifə həcmindədir. Vəsaitdə araşdırmaya cəlb olunan məsələlər: robotların yaranma tarixi, robototexnikanın əsasları, layihələndirmənin əsasları, robotların hazırlanması üçün alətlər, materiallar və avadanlıqlar, robototexniki konstruksiyaların elementləri, robotun idarə olunması, robotun naviqasiyası, təhsildə ekzotik robotlar elmi cəhətdən əsaslandırılmışdır.

Yüksək elmi və texniki nailiyyətlərin sürətlə davam etdiyi, bununla da innovasiyalı iqtisadiyyatların sonsuz bir tələbata çevrilmiş olduğu yeni inkişaf mərhələsində robototexnika ilə bağlı nəşrlərin çap olunması mühüm elmi nailiyyətdir. "Robototexnikanın əsasları" adlı dərs vəsaiti müvafiq elm sahələrinin birlikdə öyrənilməsinə imkan verəcək. Digər tərəfdən strukturlaşma və idarəetmə baxımından da ölkəmizdə robototexnika sahəsində və yüksək texnologiyalaşma proseslərində bu dərs vəsaitinin istifadəsinə ehtiyac olacaqdır.

Dərs vəsaitində göstərilir ki, tarixi və elmi inkişaf proseslərində robotların yaradılması sahəsində bir sıra cəhdlər edilmişdir.

Təbii ki, robototexnikanın əsaslarının öyrənilməsində qarşılaşdığımız reallıq robotların gördükləri işlərin nədən ibarət olduğunun müəyyənləşdirilməsindən ibarətdir. Bununla bağlı olaraq dərs vəsaitində əsaslandırılır ki, robotlar insanlar üçün təhlükəli sayıla biləcək yerlərdə, məsələn, kosmosda, mədənlərdə və suyun altında müxtəlif proseslərin icrasında istifadə oluna bilər. Əsrdə robotların daha çox təhlükəsiz iş şəraitinin təmin olunması məqsədilə istifadə edilməsi məqamına da toxunulur. Yəni radioaktiv maddələrin, zərərli kimyəvi birləşmələrin və insan sağlamlığı üçün təhlükə yaradan xəstəliklərə səbəb olan bakteriyaların olduğu yerlərdə də faydalı ola bilər.

Yeni dərs vəsaiti elmə dayanan inkişafın hazırkı mərhələsində iqtisadi prioritetlərin əlçatanlığının təmin edilməsində və reallaşmasında mühüm əhəmiyyətə malik olacaq. İstehsal və xidmət sektorlarında məhsuldarlıq səviyyəsinin yüksəldilməsi, məkanından asılı olmayaraq, istənilən ərazi hüdudları üçün ciddi tələbat formalaşan və bununla da günümüzün fəal iştirakçısına çevrilən robotlar özündə sensor, idarəetmə sistemi, çeviklik və avtonomluq əks etdirən və bununla da mexatron qurğu olan "canlı"dır. Çünki o, mədənlərdə, kosmosda, dənizlərdə, əlçatması çətin olan müxtəlif sahələrdə mürəkkəb işlər görür, təbii sərvətlər hasil edir və komplekt hissələri avtomobillərə quraşdırır. Müəllif robotlar vasitəsilə alınan nəticələrə daha pozitiv yanaşır və belə bir qənaətə gəlir ki, yaxın gələcəkdə daha da təkmilləşdirilmiş avtomatik idarə olunan avadanlıqlar, ev işlərinin görülməsi və müəyyən tələblər üzrə ixtisaslaşmış avadanlığın yığılması məqsədilə robototexniki qurğular yaradılacaqdır.

Dərs vəsaitində robotlarla işlərin daha intensiv xarakterə malik olmaqla reallaşmasına yer verilir və sənaye robotları, tökmə robotlar, mexaniki emal robotları, quraşdırıcı (montaj) robotlar, boyayıcı robotlar, inşaat robotları, çeşidləyici – qablaşdırıcı robotlar, nəqliyyat robotları, kənd təsərrüfatı robotları, məişət robotları kimi təsnifləşdirilir.

Ölkələrin müdafiə sənayesinin inkişafında və təhlükəsizliyinin etibarlı təmin edilməsində daha sıx istifadə olunan hava PUA-ları (Pilotsuz Uçan Aparat) da dərs vəsaitində əsaslandırılmışdır. Bu anlayışın, müşahidə və kəşfiyyat, düşmənə endirilən zərbələrin koordinasiyası, öz ətrafında simsiz rabitə şəbəkələrinin yaradılması kimi hava missiyalarının icra olunması üçün nəzərdə tutulduğu göstərilmişdir. Robototexnikanın inkişafında mexanika üzrə biliklərin öyrənilməsi zəruriliyi ilə seçilir. Həmin biliklər bir çox fiziki hadisələri dərk etmək məqsədilə öyrənilir. Bunlar, əsasən, konstruksiyada tətbiq olunan müxtəlif hissələr arasında gücün necə paylanılmasını əsas götürür. Həmçinin ağırlıq mərkəzinin harada yerləşməsi də diqqət tələb edir. Proseslərin gedişində sürtünmə, yerləşmə, sürət, cismin təcili və sair kimi amillər zəruri hesab olunur. Robototexnika öyrənilərkən Nyutonun qanunları, ətalət (inersiya) materialların xassəsindən ibarət olan məsələlər daha qabarıq ortaya çıxır.

Oxucu əsərdə robototexnika ilə bağlı olan prosesləri ardıcıl, qarşılıqlı əlaqədə, bir-birinin əhəmiyyətini üzə çıxarmaqla öyrənir. Dərs vəsaitində layihələndirmənin də əsas prinsiplərinə nəzər yetirilmiş, avtomatlaşdırılmış layihələndirmə sistemlərinə baxılmış, onun təminat növləri aydınlaşdırılmış, bu sistemdə modelləşdirmə vasitələri göstərilmişdir. Orada additiv istehsal texnologiyasının mahiyyəti izah edilmiş, mexaniki və elektrik alətlər haqqında bəhs olunmuş, elektron komponentlərin təsiri öyrənilmişdir. Müasir dövrümüzlə aktuallığını artıran məsələ olaraq robotların qidalanma sistemləri, bu sahədə icraçı qurğular haqqında təqdimat verilmiş sensor sistemləri, yerləşdirmə sensorları barədə məlumatlar yer almışdır.

Vəsaitdə, həmçinin robototexniki sistemlərin idarə olunması tipləri, onun idarə olunmasının arxitekturası əsaslandırılmışdır. Əhatəli şəkillərə əsaslanan dərs vəsaitində avtonom və yarımavtonom robotların izahı verilməklə, idarəetmənin kabel, infraqırmızı pult, radio, mobil telefon vasitəsilə təşəkkül tapan formalarına işıq salınmışdır. Dərs vəsaitinin mövzuları içərisində naviqasiyanın təmin olunma sistemi, robotun hərəkətinin təşkil olunma üsulları, intellektual robotun idarəetmə sisteminin xüsusiyyətləri barəsində geniş təqdimat verilir. Eyni zamanda təhsildə ekzotik robotlar, süni neyronlar və neyron şəbəkələr, sadə analoq robotun hazırlanması və digər zəruri amillər yer almışdır.

Dərs vəsaitində təqdim edilmiş mövzular şəkillər, düsturlar, sxemlər və digər üsul, metod və vasitələrlə izah olunmuşdur. Hər bölmənin sonunda yoxlama sualları verilmiş və tələbələrin (oxucunun) mənimsəmə bacarıqlarının təkmilləşdirilməsi nəzərə alınmışdır.

*Beləliklə, yeni işıq üzü görən "Robototexnikanın əsasları" uyğun fənlərin və ümumilikdə, iqtisadiyyatın sahə strukturu üzrə bütün istiqamətlərin informasiya təminatı, avtomatlaşdırılması, dinamikliyi, çevikliyi və perspektivliliyinin təmin olunması baxımından həm axtarılandır, həm də özünün dolğunluğu ilə əlçatandır. Məhz buna görə əminliklə, demək olar ki, dərs vəsaiti tədqiqatçıların istinad etmiş olduqları mənbə kimi oxucunun maraqlandığı suallara əhatəli cavab tapmaq baxımından böyük əhəmiyyətə malikdir.*

**Məftun ƏLİYEV**
***Naxçıvan Dövlət Universitetinin dosenti***

***Ali təhsil ocağında Elm və innovasiyalar bölməsi və Tələbə Elmi Cəmiyyətinin təşkil etdiyi 2021-2022-ci tədris ilində magistrant adını qazanmış təhsilalanlarla görüş keçirilib.***

Ki, magistrantlar yaradılan bu səmərəli şəraitdən bəhrələnərək respublikamızın müxtəlif ali təhsil müəssisələrində və xarici ölkələrdə keçirilən elmi konfranslarda iştirak edirlər.

## I kurs magistrantlarla görüş



Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev ali məktəbə magistrant kimi təhsil almağa başlayanları təbrik edib və onlara uğurlar arzulayıb. Rektor bu il magistraturaya 250 yerə qarşı 226 magistrantın qəbul olduğunu bildirərək qəbul faizinin 90 faizdən artıq olduğunu qeyd edib. Diqqətə çatdırılıb ki, bu da indiyə qədər əldə olunan ən yüksək nəticədir. İxtisaslı kadrların hazırlanmasında magistr pilləsinin mühüm əhəmiyyətindən danışan rektor bu gün universitetin magistraturasını bitirən məzunların muxtar respublikanın təhsil sahəsinə mühüm töhfələr verdiyini vurğulayıb. Qeyd edilib ki, muxtar respublikada təhsilə göstərilən yüksək qayğı həm də qarşıya çox böyük məsuliyyət qoyur. Ali təhsil ocağında magistr hazırlığı sahəsində görülən işlərdən danışan Elbrus İsayev magistrantların hazırlanması sahəsində ciddi işlərin həyata keçirildiyini diqqətə çəkib. Qeyd olunub ki, universitetdə bu tədris ilindən etibarən magistr dissertasiyalarının xüsusi proqram vasitəsilə yoxlanılması həyata keçiriləcək.

Magistratura mərkəzinin direktoru Etibar Məmmədov Naxçıvan Dövlət Universitetində magistratura hazırlığı haqqında çıxışında qeyd edib ki, 1997-ci ildən 7 ixtisas üzrə 24 nəfərə magistr təhsili verməyə başlayan universitetdə hazırda hər iki kursda 77 ixtisas üzrə kadr hazırlığı aparılır. Vurğulanıb ki, muxtar respublikada təhsilə göstərilən qayğının nəticəsidir ki, magistratura üzrə dekanlıq əsaslı şəkildə yenidən qurulan və müasir kommunikasiya vasitələri ilə təmin olunan binada fəaliyyət göstərir. Diqqətə çatdırılıb

Elm və innovasiyalar bölməsinin müdiri Rza Məmmədov "Akademik karyera planlaması və könüllülük" haqqında çıxış edərək qeyd edib ki, 2020-ci ilin ölkəmizdə "Könüllülər ili" elan edilməsi bu sahədə fəaliyyətin universitetimizdə də məqsədyönlü həyata keçirilməsinə şərait yaradıb.

Vurğulanıb ki, ötən il magistrlərdən ibarət könüllülərin rəhbərlik etdiyi bölmədə magistrlərin fəaliyyəti qiymətləndirilib və bu fəaliyyəti uğurla keçənlər ali təhsil ocağında işlə təmin olunublar.

Universitet Tələbə Elmi Cəmiyyətinin sədri Təbrizə Bağırova bu ali təhsil ocağının elmi nailiyyətlərində təhsilalanların rolundan danışıb, ötən tədris ilində TEC-in uğurlu fəaliyyəti videoçarxlarla tədbir iştirakçılarının nəzərinə çatdırılıb.

Universitet TEC Magistratura Şurasının sədri Fuad Babayev 2021-2022-ci tədris ilində Magistratura Şurasının vəzifə və öhdəlikləri haqqında çıxış edib.

Sonda könüllülük fəaliyyəti nəticəsində Naxçıvan Dövlət Universitetinin Elm və innovasiyalar bölməsində işçi kimi çalışan Türkan Quliyeva ali təhsil ocağında tələbələrə göstərilən xüsusi diqqət və qayğıdan danışıb və çəkdiyi "Naxçıvan mənzərəsi" adlı rəsm əsərini rektora hədiyyə edib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## İstedadı və yaradıcı təfəkkürü ilə seçilən şagirdləri aşkar etmək üçün müxtəlif tədbirlər həyata keçirilir



Muxtar respublikamızda bütün sahələrin inkişafı ilə yanaşı, təhsil sahəsi də yüksək qayğı ilə əhatə edilib. Bu sahədə həyata keçirilən tədbirlər gələcəyimizə hesablanmış islahatdır. Təhsil müəssisələri üçün yeni binalar tikilir, ümumtəhsil məktəbləri ən müasir informasiya və kommunikasiya texnologiyaları ilə təmin edilir. Bu gün təkcə Naxçıvan şəhərində yox, həm də bütün rayon və kəndlərimizdə belə məktəb binaları ali təhsil ocaqlarının binalarından heç də seçilməyən geniş, işıqlı, elektron lövhəli sinif otaqları, laboratoriyalar, fənn kabinələri, kompüter sinifləri, müasir idman zalları olan tədris ocaqları müəllim və şagirdlərin ixtiyarına verilir. Bunlarla yanaşı, yeni təlim texnologiyalarına uyğun kadr potensialının möhkəmləndirilməsi, informasiya-kommunikasiya texnologiyalarının təhsil müəssisələrində geniş tətbiqi, istedadı və yaradıcı təfəkkürü ilə seçilən şagirdləri aşkar etmək, onların bilik və bacarıqlarını möhkəmlətmək üçün müxtəlif tədbirlər həyata keçirilir. Bu baxımdan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Liseyinin yaradılması ilə əlaqədar imzaladığı Sərəncam istedadlı şagirdlərin aşkara çıxarılmasına mühüm töhfə olacaqdır. Sərəncamda deyilir: *"Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafı sahəsində görülən işlər və maddi-texniki bazanın möhkəmləndirilməsi, ümumtəhsil məktəblərinin müasir tədris avadanlıqları ilə təmin olunması, pedaqoji heyətin təkmilləşdirmə kurslarına cəlbi, kimya və biologiya fənləri üzrə şagirdlərin istedad və bacarıqlarının aşkar edilməsi və inkişafı, həmçinin gələcək ixtisas seçiminin istiqamətləndirilməsi yeni tipli təhsil müəssisəsinin yaradılmasını zəruri etmişdir".*

Sərəncamın icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2021-ci il 12 mart tarixli Qərarı ilə "Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Liseyin ştat cədvəli" təsdiq edilmişdir.

Lisey üçün nəzərdə tutulmuş və 4 mərtəbədən ibarət olacaq binada tədris korpusu, idman zalı, kimya və biologiya laboratoriyaları, ayrı-ayrı sinif otaqları, yataqxana, kompüter otağı, akt zalı və camaşırxana fəaliyyət göstərəcəkdir. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyindən aldığımız məlumata görə, liseyə qəbul ümumtəhsil məktəblərinin VII sinfində təhsil alan şagirdlər arasında müsabiqə yolu ilə aparılacaqdır. Müsabiqədə ən yüksək nəticə göstərən şagirdlərdən 30 oğlan və 30 qız olmaqla, 60 şagird liseyə qəbul ediləcəkdir. Bəzi hallarda tədris ili ərzində istedadlı şagirdlər, habelə kimya və biologiya fənlərindən keçirilən olimpiadalarda fərqlənən şagirdlər fərdi qaydada liseyə qəbul olunmaq imkanı əldə edə biləcəklər. Liseydə ayrı-ayrı fənlərin tədrisi keyfiyyətini və təlimin məzmununu yaxşılaşdırmaq məqsədilə fənn metodik birləşmələri təşkil olunacaq. Metodbirləşmə rəhbərinin başlıca vəzifəsi müəllimlərə və tərbiyəçilərə metodik köməklik göstərmək, qabaqcıl pedaqoji təcrübənin öyrənilməsinə və təlim prosesində tətbiq olunmasına, tədris planı və proqramların, metodik tövsiyələrin yerinə yetirilməsinə nəzarət etmək, təlimin məzmunu ilə əlaqədar təkliflər hazırlamaq, təlimin keyfiyyətini öyrənib təhlil etmək, nəticəni müzakirəyə çıxarmaq üçün müəllimlərin və tərbiyəçilərin təşəbbüskarlığını və yaradıcılığını artırmaqdan ibarətdir.

**Nuray ƏSGƏROVA**

# Naxçıvandakı əcnəbi tələbələr milli dəyərlərimizi böyük həvəslə öyrənirlər

*Bu gün xaricdə təhsil almaq bütün dünyada populyardır. Bu baxımdan dünyanın hər yerindən əcnəbi tələbələri qəbul edən Naxçıvan Dövlət Universiteti də istisna deyil. 1967-ci ildən fəaliyyətə başlayan universitet ötən dövr ərzində müxtəlif inkişaf mərhələlərindən keçərək dünya universitetləri sırasında nüfuzlu yerə sahib olub. Artıq uzun müddətdir ki, bu ali təhsil müəssisəsinin qapıları müxtəlif xarici dövlətlərin vətəndaşlarının da üzünə açıqdır.*





Universitetdə dünyanın 9 müxtəlif ölkəsindən 1400-ə yaxın əcnəbi tələbə təhsil alır. Bu, Azərbaycanın digər universitetləri arasında analoqu olmayan bir rəqəmdir. Bu gün qürurla demək olar ki, universitet güclü maddi-texniki bazaya və yüksək səviyyəli professor və müəllim heyətinə malikdir.

Təhsil ocağında Azərbaycanın müxtəlif bölgələrindən olan tələbələrlə yanaşı, xarici tələbələrə də yüksək qayğı göstərilir. Bakalavr, magistr pillələrində təhsil alan xarici tələbələr universitetin həyatında mühüm rol oynamaqla yanaşı, rəsmi mədəni-kütləvi tədbirlərdə də fəal iştirak edirlər.

Naxçıvanı özlərinə ikinci vətən sayan əcnəbi tələbələr Naxçıvanın adət və ənənələrinə, xalqımızın milli dəyərlərinə böyük maraq göstərirlər. Onlar universitetin Beynəlxalq münasibətlər və hüquq, tibb, iqtisadiyyat və idarəetmə və digər fakültələrində təhsil alırlar. Buna baxmayaraq, təkcə öz fakültələrində deyil, digər fakültələrdə də keçirilən tədbirlərə cəlb olunurlar. Belə ki, onlara öz ixtisasları ilə yanaşı, maraq dairələrində olan ixtisas və peşələrin öyrədilməsi üçün də hərtərəfli şərait yaradılıb. Yeri gəlmişkən qeyd edim ki, universitetdə təlim və təhsilin inkişafı ilə bağlı müxtəlif



mərkəzlər yaradılır. Bunlardan biri də Pedaqoji fakültənin Fənlərin tədrisi metodikası və texnologiya müəllimliyi kafedrasının bazasında olan Texnologiya mərkəzidir. Əcnəbi tələbələrin bu mərkəzlə tanışlığı onlarda yüksək təəssüratlar yaradıb.

Burada əcnəbi tələbələrə milli mədəniyyət nümunələrimiz və milli mətbəximiz barədə məlumat verildikdən sonra onlar Texnologiya mərkəzində fəaliyyət göstərən dərnəklərə yazılmaq qərarına gəliblər. Mərkəzdə həyata keçirilən layihələrin bir çoxunda əcnəbi tələbələr fəallıq göstərirlər. Burada zəngin avadanlıqlara malik olan tikiş, toxuma, xalçatoxuma, kulinariya kabinələri, ağac emalı və metalkəsmə emalatxanası fəaliyyət göstərir. Bu kabinələrdə təcrübəli müəllimlərin köməyi ilə əcnəbi tələbələrin qabiliyyət və bacarıqları üzə çıxarılır.

Onların xüsusi marağını nəzərə alaraq hər həftənin cümə günü kulinariya kabinəsində "Milli mətbəximizin tanıdılması və mətbəx mübadiləsi" adlı layihənin həyata keçirilməsinə başlanılıb. Belə ki, milli mətbəx nümunələri və digər xalqların mətbəxi ilə növbələşmə yolu ilə tanış olunur və hazırlanması üçün tam şərait yaradılır. Hər həftənin şənbə günü isə Naxçıvan Muxtar Respublikasının müxtəlif rayonlarına turlar təşkil edilir. Hər rayonun özünəməxsus mətbəxi əcnəbi tələbələrdə böyük maraq doğurur. Onlar Naxçıvanda təhsil almaqla yanaşı, qədim diyarımızın əsrarəngiz təbiətini, tarixi abidələrini, milli yeməklərini, xalça sənətinin sirlərini öyrənirlər.

Heç şübhəsiz ki, bütün bunlar yaxın gələcəkdə milli dəyərlərimizin, qədim diyarımıza məxsus adət-ənənələrin, mətbəx nümunələrinin dünyada tanıdılmasına öz töhfəsini verəcək.

***Mətanət QULİYEVA***
***Naxçıvan Dövlət Universitetinin dosenti***

## Növbəti əmək yarmarkası Culfa rayonunda olub

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən əmək yarmarkalarının təşkili davam etdirilir. Növbəti belə tədbir Culfa rayonunda keçirilib. Qeyd edək ki, sözügedən əmək yarmarkasına işaxtaranlarla yanaşı, hərbi xidmətdən yeni tərxis olunmuş gənclər də dəvət olunub. Hərbi xidmətdən yeni tərxis olunmuş gənclərə, onların vakant iş yerlərinə göndərilməsi, müvafiq peşə və ixtisaslara yiyələnməsi üçün peşə hazırlığı kurslarına cəlb olunması, əmək bazarına inteqrasiyası və rəqabət qabiliyyətinin



artırılması və özünüməşğulluqlarının həyata keçirilməsi ilə bağlı məlumatlar verilib.

Əmək yarmarkasında işaxtaranlara, ümumilikdə, 24 müəssisədən 163 boş iş yeri təqdim edilib. Nəticədə, 21 nəfərin sözügedən vakansiyalar üzrə işə göndərilməsi təmin olunub, 9 nəfərin isə özünüməşğulluq proqramına cəlb edilməsi üçün qeydiyyatı aparılıb. Həmçinin əmək yarmarkasında peşə hazırlığı kurslarına 7 nəfərin qeydiyyatı aparılmışdır ki, onlardan 4 nəfərini hərbi xidmətdən tərxis olunmuş gənclər təşkil edib.

Növbəti əmək yarmarkası oktyabrın 15-də Şahbuz rayonunda keçiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Maarifləndirici seminar



Babək Rayon Təhsil Şöbəsinin akt zalında rayonda fəaliyyət göstərən uşaq müəssisələrinin, o cümlədən ümumtəhsil məktəbləri, məktəbəqədər və məktəbdənkənar təhsil müəssisələrinin rəhbər şəxslərinin iştirakı ilə sanitar-gigiyenik vəziyyətlə bağlı maarifləndirici seminar keçirilmişdir. Tədbiri giriş sözü ilə İcra Hakimiyyətinin əməkdaşı Asif Hacıyev açmışdır.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi aparatının rəhbəri Eltun Həziyev, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi aparatının Ümumtəhsil məktəbləri və liseylərlə iş üzrə şöbəsinin müdiri Abdulla Əsgərov, Babək Rayon Gigiyena və Epidemiologiya Şöbəsinin direktoru Adil Novruzov çıxış edərək tədbirin keçirilməsinin zəruriliyi və mahiyyətindən bəhs etmişlər. Çıxışlarda bütün təhsil müəssisələrində tibb xidmətin təşkili, təhsilalanların profilaktik müayinəsi, peyvəndlərin aparılması barədə ətraflı məlumat vermişlər.

Bildirilmişdir ki, ümumtəhsil məktəblərində və məktəbdənkənar müəssisələrdə uşaqların sağlamlığı ilə əlaqədar müəssisədaxili tələblər mövcuddur. Belə ki, uşaq müəssisələrində uşaqların sağlamlıqlarının qorunması, möhkəmləndirilməsi və yoluxucu xəstəliklərin profilaktikası məqsədilə sanitar-gigiyena tələblərinə əməl edilməlidir.

Sonda bukletlər paylanılmışdır.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Ünvan lövhələrinin və giriş nömrə nişanlarının quraşdırılması yekunlaşıb

Müasir əmlak idarəçiliyində daşınmaz əmlakın vahid kadastrının




tərkib hissəsi olan ünvan reyestri məlumatları mühüm əhəmiyyət kəsb edir. Naxçıvan şəhərində və muxtar respublikanın əhalisi beş mindən yuxarı olan digər yaşayış məntəqələrində nəqliyyat infrastrukturu və daşınmaz əmlak obyektlərinə ünvanların verilməsi, eləcə də ünvan reyestrində müvafiq düzəliş və dəqiqləşmə işlərinin aparılması diqqət mərkəzində saxlanılır.

Cari ilin 9 ayı ərzində Naxçıvan şəhəri üzrə 43 nəqliyyat infrastrukturu obyektində 5265 yeni, müasir dizaynlı ünvan lövhələri və giriş nömrə nişanlarının quraşdırılması işləri aparılmışdır. Layihənin həyata keçirildiyi gündən, ümumilikdə, Naxçıvan şəhərinin 1 prospekt, 71 küçə, 30 məhəllə və 1 kəndi olmaqla, 103 nəqliyyat infrastrukturu obyektində 10 minə yaxın ünvan lövhəsi və giriş nömrə nişanları quraşdırılmışdır.

Layihənin həyata keçirilməsi vətəndaşlara və hüquqi şəxslərə ünvan məlumatlarına çevik, vahid və etibarlı çıxış əldə etmək, internet əsaslı elektron xidmətlərdən istifadə, ünvanların asan tapılması, sosial və idarəetmə məsələlərinin həlli zamanı vaxt itkisinin aradan qaldırılması imkanı verəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti***

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** Xaricdə bağlanmış nikah Azərbaycan Respublikasında hansı hallarda tanınır?*

***Cavab:*** Azərbaycan Respublikasından kənarda bağlanmış nikahın tanınması Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 148-ci maddəsinə əsasən Azərbaycan Respublikasının hüdudlarından kənarda Azərbaycan Respublikasının vətəndaşları arasında, Azərbaycan Respublikasının vətəndaşları ilə əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər arasında həmin xarici ölkənin qanunvericiliyinə əməl etməklə bağlanan nikah, Ailə Məcəlləsinin 12-ci maddəsində nəzərdə tutulan nikahın bağlanmasına mane olan hallar (yaxın qohumlar (valideynlər və uşaqlar, baba-nənə və nəvələr, doğma və ögey (ümumi ata və anası olan) qardaş və bacılar), övladlığa götürənlər və övladlığa götürülənlər, ikisindən biri və ya hər ikisi başqası ilə nikahda olan şəxslər, tibbi müayinədən keçdiklərini təsdiq edən arayışı təqdim etməkdən imtina edən şəxslər və ikisindən biri və ya hər ikisi ruhi xəstəlik və ya kəmağıllıq nəticəsində məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan hesab edilən şəxslər arasında nikahın bağlanmasına yol verilmir) olmadıqda, Azərbaycan Respublikasında etibarlı hesab edilir. Azərbaycan Respublikasından kənarda əcnəbilər arasında onların ölkəsinin qanunvericiliyinə əməl etməklə bağlanan nikah Azərbaycan Respublikasında tanınır.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsi***

## Təlim keçirilib

Oktyabrın 13-də Azərbaycan Milli Paralimpiya Komitəsinin stolüstü tennis üzrə milli komandasının baş məşqçisi Ruqiyyə Qubuşova və



məşqçi Əkbər Qubuşovun iştirakı ilə muxtar respublikada stolüstü tennis ilə məşğul olan paralimpiyaçılar üçün təlim keçirilib. Təlimdə iştirakçılara müxtəlif məşq prosesləri haqqında müvafiq tövsiyələr verilib.

Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasının sədri Nicat Babayev təlim-məşq prosesini izləyib, idmançıların qayğıları ilə maraqlanıb.

Sonda Azərbaycan Milli Paralimpiya Komitəsinin stolüstü tennis üzrə uşaq milli komandasının baş məşqçisi Ruqiyyə Qubuşovaya xatirə hədiyyəsi və təşəkkürnamə təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Şəhər birinciliklərinə yekun vurulub

***Naxçıvan Muxtar Respublika Stadionunda "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq!" devizi altında Naxçıvan şəhər tam orta məktəblərinin atletləri arasında atletikanın kross qaçışı üzrə şəhər birinciliyi keçirilib.***



Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi, şəhər Təhsil Şöbəsi və Uşaq-Gənclər İdman Məktəbinin təşkilatçılığı ilə keçirilən birincilikdə 60 qız və oğlan iştirak edib.

Qızlar arasında 2 kilometr məsafədə keçirilən yarışın nəticəsinə əsasən 15 nömrəli tam orta məktəbin şagirdi Ülviyyə Hüseynli qalib adını qazanıb. Həmin məktəbin digər şagirdi Sevinc Əliyeva ikinci, 8 nömrəli tam orta məktəbin şagirdi Nilufər Quliyeva isə üçüncü olub.

Oğlanların 5 kilometr məsafəyə mübarizəsində isə finiş xəttinə hamıdan tez 15 nömrəli tam orta məktəbin şagirdi Əliabbas Səfərov çatıb. Digər iki pillədə 8 nömrəli tam orta məktəbin şagirdi Məhəmməd İsmayılov və 12 nömrəli tam orta məktəbin şagirdi Elvin Əliyev qərarlaşıblar.

Sonda qaliblər mükafatlandırılıb.

* * *



*Naxçıvan şəhərindəki 12 nömrəli tam orta məktəbin meydançasında "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq!" devizi altında Naxçıvan şəhər tam orta məktəblərinin oğlan komandaları arasında keçirilən voleybol birinciliyinə yekun vurulub.*

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və Uşaq-Gənclər İdman Məktəbinin birgə təşkilatçılığı ilə keçirilən yarışda 17 komanda mübarizə aparıb. Beynəlxalq Voleybol Federasiyasının mövcud qaydalarına əsasən iki gün davam edən birinciliyin qalibi 13 nömrəli tam orta məktəbin komandası olub. Onlar finalda 10 nömrəli tam orta məktəbin komandasını məğlub ediblər. 4 nömrəli tam orta məktəbin komandası isə üçüncü yerlə kifayətlənib.

Sonda yer tutan komandalar təşkilatçıların diplomları ilə mükafatlandırılıb.

✍ **Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

Şərur rayonunun Yuxarı Yaycı kənd sakini Əliyev Elçin Hüseyn oğlunun adına verilmiş JN-239A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonunun Biçənək kənd sakini Abbasov Abbas İmran oğlunun adına verilmiş 8 inventar nömrəli texniki pasport və MH-0018916 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 850